# 2007-ci ilin dövlət büdcəsi nə vəd edir?

Gəlirləri 63 faiz artacaq dövlət büdcəsi yenə də  neft sektorunun "çiyinlərindədir"

Azərbaycan Respublikasının 2007-ci il üçün dövlət büdcəsinin gəlirləri 5, 335, xərcləri isə 5, 714 milyard manat müəyyənləşmişdir. Hələlik ictimaiyyətə bəlli olan yalnız büdcənin gəlir və xərc maddələri üzrə təqdim edilən ümumi rəqəmlərdir. Büdcənin ümumi rəqəmlərində əsas pozitiv cəhət dövlət büdcəsinin həm gəlirlərinin, həm də xərclərinin əvvəlki ilə nisbətən artmasıdır. Təbii ki, bütün hallarda büdcə gəlirlərinin artması müsbət hal kimi qiymətləndirilməlidir. Qeyd edək ki, 2006-cı ildə dövlət büdcəsinin gəlirləri 3,406, xərcləri isə 3,594 milyard manat planlaşdırılıb. Bu isə o deməkdir ki, gələn ilin büdcəsinin gəlirlərində 2006-cı ilə nisbətən 64, xərclərində isə 63 faiz artım müşahidə olunacaq.

Bütövlükdə, gələn il dövlət büdcəsi daha nikbin prespektivlər vəd edir. Hər halda əsas büdcə maddələrinin hamısında müşahidə edilən artımlar bundan xəbər verir. Bundan başqa, gələn il büdcəsinin sosial yönümlülüyü qalmaqla yanaşı, 2007-ci ildə dövlət iqtisadi layihələrin maliyyələşdirilməsində daha çox vəsait ayıra biləcək.

Gələn ilin dövlət büdcəsi haqqında qanununda diqqəti çəkən əsasən yenilik "Avtomobil Yolları" Məqsədli Büdcə Fondunun yaradılmasıdır. Məsələ ondadır ki, bir neçə əvvəl məhz bu fonda ehtiyacın olmadığı qənaətinə gələn hökumət büdcədən kənar fond kimi fəaliyyət göstərən həmin hesabın mövcudluğuna son qoymuşdurlar. 2007-ci ilin dövlət büdcəsində isə hökumət məhz oxşar arqumentlə həmin hesaba "can verdi". Məqsədli büdcə fondları spesifik bir sahənin inkişafına təkan vermək məqsədilə yaradılır və adətən belə fondlar qısa müddətli dövrü əhatə edir. 2007-ci ildə nəqliyyata 45,6 milyon manatın xərclənməsi nəzərdə tutulur. Müqayisə üçün deyək ki, bu iqtisadi fəaliyyətə (12,9 milyon manat) ayrılan vəsaitdən 3,5 dəfə çoxdur. Deməli, nəqliyyata heç də az vəsait yönəldilməyəcək. "Avtomobil Yolları" Məqsədli Büdcə Fondunun yaradılması isə bu istiqamətə daha 98,0 milyon manatın yönəldilməsinə gətirib çıxaracaq. Bu rəqəmlər göstərir ki, faktiki olaraq, 2007-ci il nəqliyyat sektoru üçün "düşərli" olacaq.

Bu ilin oktyabrında idxal olunan avtomobillərə aksizlərin tətbiq edilməsi ilə bağlı prezidentin imzaladığı sənədin təsirləri artıq gələn ilin büdcəsində hiss ediləcək. Gələn il bu mənbədən dövlət büdcəsinə 35 milyon manatın köçürüləcəyi gözlənilir. Bu vəsait də "Avtomobil Yolları" Məqsədli Büdcə Fonduna yönəldiləcək. Faktiki olaraq, bu mənbə sözügedən fondun gəlirləri arasında ən böyüyü hesab edilir. Bu isə həmçinin o deməkdir ki, yolların təmirinin istehlakçılarına hesabına həyata keçirilməsi nəzərdə tutulur.

Qanunda Dövlət Neft  Fonundan dövlət büdcəsinə gələn il 585 milyon manatın ödənilməsi nəzərdə tutulur. Bu 2006-cı rəqəmi ilə eynilik təşkil edir. Gələn il xam neftinin ixrac qiyməti 40 dollardan yuxarı olduqda bu rəqəmdən 50 dollaradək olan vəsaitin 50 faizi, 50 dollardan yuxarı olan hissənin isə 75 faizi həcmində vəsait Neft Fonduna köçürüləcəkdir. Burada diqqəti çəkən əsas məqam 2006-cı il üçün olan formulun, demək olar, gələn ilki büdcəyə tətbiq edilməsidir. Sadəcə bir məqam fərqlidir: neftin dünya bazar qiymətindəki dəyişikliklərə inam heç də 2005-ci ilin sonunda olan kimi deyildir. Doğrudur, neftin dünya bazarında sentyabrdan başlayan qiymət azalmalarının qarşısını OPEK-in gündəlik istehsal kvotasının dəyişməklə bağlı təşəbbüsü aldı. Bununla belə, dünya birjalarında "future contract"la neftin satışının həyata keçirən kartellərin neftin bir barelinin gələn il birinci rübündə 42 dollara düşəcəyi ilə bağlı proqnozlarının reallaşacağı halda  neft fondu "küləyin gətirəcəyi vəsaitlərə" sahib olacaq. Rusiyanın neft şirkətləri 2007-ci milin yanvarına neftin bir barelinin 55,25 dollara satılması ilə bağlı müqavilə imzalayıblar. Bu isə o deməkdir ki, neftin dünya bazar qiyməti 2 aydan sonra da 60 dollardan aşağı olacaq.

Məsələnin başqa tərəfi ondan ibarətdir ki, 2007-ci ilin dövlət büdcəsindən də "neft iyisi" gəlir. Qeyd edək ki, 2006-cı ilin dövlət büdcəsinin gəlirlərinin 58 faizi neft sektorunun hesabına formalaşdırılırdı. Həmin asılılığın 2007-ci ildə, demək olar, saxlanması gözlənilir. Bu isə o deməkdir ki, dövlət büdcəsinin formalaşmasına ağırlıq hələ də qeyri-neft sektorunun payına düşmür. Bu isə ürəkaçan fakt hesab edilə bilməz. Belə ki, neftin dünya bazar qiymətini proqnozlaşdırmaq nə qədər çətindirsə qeyri-neft sektorunun büdcəni hələ də "çiyinlərinə" götürməməyinin nəticələrini təsəvvür etmək o qədər asandır.

"Əsas bölmələrə aid edilməyən sair xərclər" 119,98 milyon manat nəzərdə tutulub. Bu isə Mədəniyyət xərclərindən (90,18 milyon manat) çox olmaqla yanaşı mənzil və kommunal təsərrüfata (98 milyon manat) ayrılan xərclərdən 20 milyon manat artıqdır. Əsas bölmələrə aid edilməyən sair xərclərin təşkilati təsnifatı bəlli olsa da aydındır ki, bu tip xərclərinin hərəkət istiqamətlərini müəyyənləşdirmək elə də çətin deyildir. Başqa tərəfdən, inkişaf etmiş ölkələrdə bu xərclər limitləşdirilir və burada əsas məqsəd Beynəlxalq Valyuta Fondunun standartlarına uyğun olaraq büdcə sistemində şəffaflığın təmin  edilməsinə xidmət edir. Təbii ki, "sair xərclərdə" şəffaflıq səviyyəsi daha aşağı olur və bu həm həmin bölmədə ölçülə bilən konkretliyin olmamağı və eləcə də təşkilatı təsnifatın kifayət qədər mürəkkəb olması ilə bağlıdır. Buna görə də, həmin xərclərin limitləşdirilməsi və bir sıra hallarda kvotaların tətbiq edilməsi birbaşa büdcə şəffaflığının artırılmasına xidmət edir.

Gələn ilin büdcəsindən yerli (bələdiyyə) büdcələrinə verilən subsidiyaların həcmi bu illə müqayisədə dəyişməyib: 3 milyon manat. Əksər büdcə maddələrində artım müşahidə edilsə də regionların inkişafında əhəmiyyətli rol oynamağa iddialı olan bələdiyyələr bu artımdan kənarda qalıblar. Halbuki, bu xərc maddəsinin artırılması kifayət qədər əhəmiyyətli hesab edilməlidir. Bu həm son vaxtlar bələdiyyələrin yerli idarəetmədə funksiyalarının artırılması, həm də idarəetmə prinsiplərində dəyişikliklərin aparılması ilə bağlıdır. Mərkəzi və Şərqi Avropa ölkələrinin təcrübəsi göstərir ki, bələdiyyələrin inkişafında mərkəzi büdcədən həyata keçirilən transferlərin rolu kifayət qədər böyükdür. Təəssüf ki, Azərbaycanda mərkəzi büdcədən yerli büdcəyə həyata keçirilən transfer mexanizmləri ilə bağlı hələ də hətta ümumi prinsiplər müəyyənləşdirilməyib. Halbuki, bu transferlərin tənzimlənməsi büdcə sisteminin səmərəli işləməsinin əsas faktorlarından biri hesab edilir

2007-ci ilin dövlət büdcəsində diqqəti çəkən başqa məqam xərclərin optimallaşdırılmamağı və səmərəli bölgünün müxtəlif faktorlar nəzərə alınaraq qiymətləndirilməməsidir. Məsələn, 2007-ci ildə səhiyyəyə 269,5 milyon manat

vəsaitin ayrılması nəzərdə tutulub. Bu bütün büdcə xərclərinin 5 faizindən azdır. Doğrudur, bu xərclər 2006-cı ilə nisbətən nəzərə-çarpan dərəcədə artırılıb və təbii ki, bu daha çox büdcənin ümumi gəlirlərinin çoxalması ilə bağlıdır. Ancaq, son illərin disproporsional bölgüsü özünü 2007-ci ilin büdcəsində də göstərməkdədir. Məsələn, məhkəmə hakimiyyəti, hüquq-mühafizə və prokurorluq orqanlarının saxlanmasına ayrılacaq vəsait (438,3 milyon manat) səhiyyəyə ayrılan vəsaitdən 62 faiz artıqdır. Əlbəttə, məhkəmə, hüquq-mühafizə və prokurorluq orqanlarına ayrılan vəsaitin həcminin artırılmasında pis heç nə yoxdur və bu ən azı həmin sistemdə korrupsiyanın azaldılmasına, səmərəli fəaliyyətin genişlənməsinə təkan verə bilər. Çünki bu xərclərin bir qismi həmin orqanlarda çalışanların əmək haqlarının artırılmasına yönəldilir. Amma bütövlükdə büdcə maddələrində artımın və eləcə də maddələr arası xüsusi çəkinin optimallaşdırılması olduqca vacibdir. Əks halda, dövlət büdcəsi vasitəsi ilə davamlı sektoral inkişafa nail olmaq çətin olacaq.

Başqa narahatçılıq 2007-ci ilin dövlət büdcəsinin reallıq səviyyəsi ilə bağlıdır. Bəlli olduğu kimi, beynəlxalq maliyyə qurumları dövlət büdcəsinin gəlirlərin və buna uyğun olaraq xərclərinin kəskin artırılmasını əleyhinədir. İqtisadiyyatı təbii ehtiyatlardan asılı olan ölkələrdə dövlət büdcəsinin gəlir və xərclərinin kəskin artırılması dünya bazarında uyğun qiymətlərin azalması nəticəsində ölkəni ciddi problemlər ilə üzləşdirə bilər. 80-ci illərin ortalarında belə bir problemlə Anqola və 90-cı illərdə Nigeriya rastlaşmışdır. Bu baxımdan dövlət büdcəsinin gəlirlərinin artması alqışlanan olsa da buna ehtiyatla yanaşmaq lazımdır.

Beləliklə, 2007-ci ilin dövlət büdcəsinin xarakteristikasında əsas məqam təbii ki, gəlir və xərclərin kəskin artırılmasıdır. Deməli, dünya bazarının üzərini “qara buludlar” almasa və büdcə vəsaitləri səmərəli xərclənsə 2006-cı ildə yığılıb qalan bir sıra sosial problemlərin bəzilərinin gələn il həll olunması mümkündür.